# MƏNALI ÖMRÜN ZİRVƏSİNDƏ

**İ.D.VƏLİYEV***

Azərbaycan MEA-nın müxbir üzvü, əməkdar elm xadimi, filologiya elmləri doktoru, BDU-nun Türkologiya kafedrasının müdiri, professor Tofiq İsmayıl oğlu Hacıyev böyük türk dünyasının çağdaş dövrümüzdə yetişdirdiyi ən görkəmli alimlərdən biridir. O, 1936-cı il mayın 1-də Cəbrayıl rayonunun Soltanlı kəndində doğulmuşdur. 1958-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

Tofiq Hacıyev 1962-ci ildə «Azərbaycan dilinin Cəbrayıl şivəsi» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. O, burada ilk dəfə Azərbaycan şivələrində keçid şivələri haqqında məlumat vermişdir. Alim 1969-cu ildə «XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Tofiq Hacıyev həm dil, həm də ədəbiyyat məsələləri ilə məşğul olmuşdur. «Sabir: qaynaqlar və sələflər» (1980), «Şerimiz, nəsrimiz, ədəbi dilimiz» (1990), «Dədə Qorqud: dilimiz, düşüncəmiz» (1999) kitabları onun qələminin məhsuludur. Ali məktəblər üçün hazırlanmış «Azərbaycan sovet ədəbiyyatı» (1988) dərsliyinin müəlliflərindən biri Tofiq müəllimdir. Ancaq, əlbəttə, prof. Tofiq Hacıyev ən əvvəl Azərbaycan ədəbi dili tarixi sahəsində görkəmli mütəxəssisdir. O, «Azərbaycan ədəbi dili tarixi» (1976), «Azərbaycan ədəbi dili tarixi» (2-ci hissə, 1987) «XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili» (1977), «Azərbaycan dili tarixi» (1983, K.Vəliyevlə şərikli), «Azərbaycan dili» (1993, Z.Budaqova ilə şərikli) kimi monoqrafiya və dərs vəsaitlərinin mülləifidir. Prof. T.İ.Hacıyev tarixi üslubiyyat sahəsində də səmərəli fəaliyyət göstərmişdir. Klassiklərimizin dili-üslubu ilə bağlı onlarla məqaləəri, «Satira dili» (1975), «Yazıçı dili və ideya bədii təhlil» (1979), «Molla Nəsrəddin»in dili və üslubu» (1983), «Füzuli: dil sənətkarlığı» (1994) kitabları həmin mövzudadır. Görkəmli alim həm də ümumtəhsil məktəbləri üçün proqram və dərsliklərin hazırlanmasında təşkilatçı və müəllif kimi iştirak edir. Onun rəhbərliyi ilə yeniləşdirilmiş «Orta ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün «Türk dili» proqramı (1993) hazırlanmışdır. İlk dəfə orta məktəblər üçün «Türk dili» (IX sinif üçün, 1994, şərikli), «Türk dili» (X-XI siniflər üçün, 1994, şərikli) dərslikləri nəşr edilmişdir.

* Vəliyev İslam Dini oğlu – filologiya elmləri namizədi, BDU-nun Türkologiya kafedrasının dosenti.

Prof. T.İ.Hacıyev M.Adcının türklər haqqında obyektiv tarixi məlumat verən «Qıpçaq çölünün yovşanı», B.Serebrennikovla T.Hacıyevin «Türk dillərinin müqayisəli tarixi qrammatikası» əsərlərini ruscadan Azərbaycan türkcəsinə tərcümə etmişdir. O, IX əsr bulqar-tatar şairi Mikayıl Bastunun «Şan qızı dastanı» əsərini rus dilindən Azərbaycan dilinə sətri tərcümə etmiş və dastanın monoqrafik təhlilini «Mikayıl Bastunun «Şan qızı dastanı» və poetik təhlil» kitabında (Bakı, «Təhsil» nəşriyyatı, 2005) vermişdir.

Ümumiyyətlə, prof. T.İ.Hacıyev 20-dən artıq kitabın, 400-ə yaxın elmi məqalənin müəllifidir.

Prof. T.İ.Hacıyev SSRİ dövründə Kişinyov, Odessa, Nalçik, Tbilisi, Moskva, Alma-Ata, Düşənbə, Nukus, Bişkək, Ufa və başqa şəhərlərdə keçirilmiş Ümumittifaq dilçilik müşavirə və konfranslarının fəal iştirakçısı olmuşdur. Sonralar o, Qayseri (1990), Tehran (1993, 1995), Antalya (1993), Ankara (sentyabr 1996, dekabr 1997, sentyabr 2002), Urmiya (1997), Bursa (1996), Konya (oktyabr 1998), Təbriz (dekabr 1998), İzmir (2000) şəhərlərində, eləcə də Bakıda 1992-ci ildən 2007-ci ilədək müxtəlif illərdə keçirilmiş uluslararası elmi konfrans və qurultaylarda dəyərli məruzələrlə çıxış etmişdir.

Bir müddət prof. T.İ.Hacıyev Azərbaycan Respublikasının Maarif naziri (1993) işləmişdir. 1984-cü ildən BDU-nun Türkologiya kafedrasına rəhbərlik edir. 1995-ci ildən Türkiyə Cümhuriyyəti Atatürk Dil, Tarix və Kültür Qurumunun fəxri üzvüdür.

1998-ci ildə prof. T.İ.Hacıyev Türkiyə Cümhuriyyətinin «Ləyaqət Nişanı» ordeni ilə təltif olunmuşdur. O, Türkiyə Atatürk Kültür Qurumunun hazırladığı 30 cildlik «Türk dünyası ədəbiyyatı tarixi»nin müəlliflərindən biridir. Türkiyənin Sanatçılar və Yazıçılar Vəqfinin 2002-ci il üzrə «Türk dünyasına xidmət» ödülünün sahibidir. 2004-cü ilin mayında Qaraman Türk dili mükafatına, iyulun 17-də Atatürk Dil Qurumunun «Üstün Hizmət Baratı»na layiq görülmüşdür.

T.İ.Hacıyev Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. O, Sovet İttifaqı dövründə Sovet Türkoloqlar Komitəsinin və SSRİ universitetləri elmi-metodik ali filoloji şurasının üzvü olmuşdur.

Prof. T.İ.Hacıyev iki cildlik «Dədə Qorqud kitabı ensiklopediyası»nın aparıcı müəlliflərindən biri və birinci cildinin (Bakı, 2000) redaktorudur. «Üzeyir Hacıbəyov ensiklopediyası» (Bakı, 1996) və AMEA-nın altı cildlik «Azərbaycan ədəbiyyatı tarixi»nin mülliflərindəndir.

Prof. T.İ.Hacıyev əməkdar elm xadimi, AMEA-nın müxbir üzvüdür.

2006-cı il mayın 25-də Bakı Dövlət Universitetinin Böyük akt zalında BDU-nun Türkologiya kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, Türkiyə Cümhuriyyəti Atatürk Dil, Tarix və Kültür Qurumunun fəxri üzvü, Türkiyənin «Ləyaqət Nişanı» ordeni, «Türk dünyasına xidmət» ödülü və «Üstün hizmət baratı»nın laureatı, Azərbaycan Yazıçılar Birliyinin üzvü, bir sıra

sanballı elmi-tədqiqatların və monoqrafiyaların müəllifi, Azərbaycan dilinin, mədəniyyətinin və ədəbiyyatının yorulmaz tədqiqatçısı və təbliğatçısı, ömrünün 50 ilini gənc nəslin hərtərəfli mütəxəssis kimi formalaşması işinə həsr etmiş görkəmli alim, filologiya elmləri doktoru, professor Tofiq İsmayıl oğlu Hacıyevin anadan olmasının 70 və elmi-pedaqoji fəaliyyətinin 50 illiyinə həsr olunmuş yubiley tədbiri keçirildi.

Yubileyə həsr olunmuş təntənəli yığıncağı giriş sözü ilə **BDU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor Abel Məhərrəmov** açdı. Abel müəllim yığıncaq iştirakçılarını salamladıqdan sonra dedi:

«Bu gün Bakı Dövlət Universitetinin tarixində ən əlamətdar, ən sevincli günlərdən biridir. Bu möhtəşəm zalda biz xalqımızın böyük ziyalısı, dünya şöhrətli türkoloq, universitetimizin görkəmli alimlərindən biri, AMEA-nın müxbir üzvü, Türkiyənin Dil, Tarix və Kültür Qurumunun fəxri üzvü, bir çox mükafatlar laureatı, Əməkdar Elm Xadimi, filologiya elmləri doktoru, professor Tofiq İsmayıl oğlu Hacıyevin 70 illik yubileyinə yığışmışıq.

Tofiq müəllimin mənalı həyat yolunu, gənclərə nümunə olan ömrünün bir zirvəsi kimi bu yubileyini hesabat kimi dəyərləndirmək olarsa, onda ona çox yüksək qiymət vermək mümkündür. Həm insan kimi, həm cəmiyyətin ləyaqətli üzvü kimi, həm alim kimi, həm də ziyalı kimi bütün təriflərdən yüksəkdə dayanan Tofiq müəllim haqqında ən xoş sözləri demək istəyirəm. Mən hesab edirəm ki, bu gün, bu yubiley, əlbəttə, böyük bayramdır. Azərbaycan elminin, Azərbaycan təhsilinin, Azərbaycan ziyalılığının böyük bayramıdır. Təbii ki, bu bayrama hərə bir töhfə ilə, istək və arzu ilə gəlmişdir. Azərbaycan xalqı öz alim oğlunun yubileyinə böyük töhfələrlə gəlmişdir. Bugünkü məclisimizdə çoxlu qonaqlar – dövlətin ali struktur rəhbərləri, görkəmli ictimai xadimlər, millət vəkilləri, bir çox ölkələrdən gəlmiş alimlər iştirak edirlər. Mən onların hər birini bir daha bu təntənəli yubiley bayramında təbrik edirəm və «Xoş gəlmişsiniz!» - deyirəm. Hamınızın bildiyi kimi, bu günlərdə AMEA-nın böyük salonunda I Türkoloji Qurultayın 80 illik yubileyinə həsr olunmuş təntənəli elmi-praktik konfrans keçirildi. Konfransda Azərbaycan alimləri ilə birgə türk dünyasının tanınmış alimləri və ziyalıları da iştirak edirlər. Qurultay bu gün öz işini yekunlaşdırdığı üçün nümayəndələr Tofiq müəllimin yubileyinə gəlmişlər. Odur ki, bu gün salonumuzdakı qonaqlarımızın arasında konfrans nümayəndələri çoxluq təşkil edir. I Türkoloji Qurultayın 80 illiyinə həsr olunmuş konfransa Türkiyə, Qazaxıstan, Tatarıstan, İran, Gürcüstan, Krım və Moskvadan dəvət olunmuş iştirakçılar zalda oturmuşlar: Türkiyədən Zeynəb xanım Qorxmaz, Əhməd Bican Ərcilasun, Şükri Haluk Akalın, Osman Fikri Sərtqaya, Rasim bəy Özyürek, Fikrət Türkmən, Yusif Gədikli, İrandan hamımızın ağsaqqalı Cavad Heyət, Moskvadan Tofiq Məlikli, Qazaxıstandan Şakir İbrayev, Tatarıstandan Mirfatix Zəki-

yev, Krımdan İsmət Zaatov, Gürcüstandan Sisana Abuladze və başqaları.

80 il əvvəl türк dünyasının zəкalı insanları, tanınmış alimləri yığışıb I Türкoloji Qurultayı кeçirmişlər. Qurultaydan da birbaşa Əlişir Nəvainin yubileyini qeyd etməyə getmişlər. Bu gün də biz onu təкrar etdiк. Konfrans sona çatdıqdan sonra dostlarımız, qonaqlarımız xalqımızın dünya şöhrətli türкoloq alimi Tofiq Hacıyevin yubileyinə yığışıblar.

Tofiq müəllim özünəməxsus dolğun həyat tərzi кeçmişdir. Gözəl alim кimi, gözəl insan кimi, böyüк ziyalı кimi, böyüк mülləim кimi Azərbaycan ictimaiyyətində özünə şöhrət qazanmışdır. Zəhmətlə, qabiliyyətlə, bacarıqla və bunların hamısından vacib güclü vətəndaşlıq mövqeyi ilə Tofiq müəllim bu 70 ili başa vurub. Onun «Azərbaycan ədəbi dili tarixi» fənninin formalaşmasındaкı xidmətləri böyüкdür. O, böyüк dilçi alim olmaqla yanaşı, həm də istedadlı ədəbiyyatçıdır, tənqidçidir, səriştəli tərcüməçidir. Bunların hamısından öncə güclü vətəndaşlıq, milli təəssübкeşliк mövqeyinə maliк olan ziyalıdır, nurlu bir insandır.

Tofiq müəllim həmişə millətimizin, türк dünyasının inкişafı üçün düşünür. «Dədə Qorqud»dan bu tərəfə apardığı araşdırmalar, Azərbaycanda ədəbi fiкrin, ədəbi dilimizin bu günə necə gəlib çıxmasını və Azərbaycan dilinin türк dilləri müstəvisindəкi mövgeyini elmi-nəzəri baxımdan qiymətləndirməsi Tofiq müəllimin əsas yaradıcılığının ağırlıq mərкəzində durur. Təsadüfi deyil кi, Tofiq müəllim Azərbaycan ictimaiyyətində özünəməxsus ad qazandığı кimi, türк ölкələrində də görкəmli bir alim кimi tanınır. Türкiyə Respubliкasının bir çox elmi qurumlarının üzvüdür, Türкiyə dövlətinin bir sıra təltiflərinə layiq görülmüşdür.

«Dədə Qorqud»un 1300 illiк yubileyi ərəfəsində Böyüк öndərimiz, Ümummilli liderimiz Heydər Əliyev Tofiq müəllimin əməyini yüкsəк qiymətləndirərəк ona Əməкdar Elm xadimi fəxri adını verdi. Bugünкü bayrama da dövlət rəhbərliyi səviyyəsində diqqət vardır. Laкin ən böyüк qiymət Tofiq müəllimə yubileyi ərəfəsində verilib, bu da xalqımızın ona olan böyüк məhəbbətidir.

Baкı Dövlət Universitetinin Elmi Şurasının mütəmadi iclasları кeçirilir. Bu iclaslarda Tofiq müəllim həmişə öz prinsipial mövqeyi ilə fərqlənir. O, 22 ildir кi, Türкologiya кafedrasına rəhbərliк edir. Bu кafedra Tofiq müəllimin rəhbərliyi altında Azərbaycanda türкoloji mərкəz hesab olunur, elmi mühit orada çox güclüdür. Bu, elmə, türкçülüyə, türкoloji elmə olan münasibət hesabına belə olmuşdur. Tofiq müəllimin dəstəyi ilə, istəк və arzusu ilə BDU-da Bəкir Çobanzadə adına Türкoloji Araşdırmalar Mərкəzi açdıq. Baкıya gələn hər bir türкoloq tədqiqatçı bu mərкəzə gedib İnternet sistemi vasitəsilə dünya ilə əlaqələr yarada biləcəкdir.

Tofiq müəllim, mən BDU-nun bütün кolleкtivi adından, qonaqların adından bu şanlı yubileyiniz münasibətilə Sizi təbriк edirəm, Sizə cansağlığı arzulayıram. Ümidvaram кi, növbəti yubileyiniz olarкən bunu biz əvvəl Cəbrayılda, sonra isə universitetimizdə

qeyd edəcəyik. Cəbrayıllı qonaqlar Tofiq müəllim kimi böyük ziyalıları ilə fəxr edə bilərlər.

Bir daha, Tofiq müəllim, Sizi təbrik edirəm!»

Abel müəllim professor Tofiq Hacıyevin dilçilik fəaliyyəti haqqında məruzə etmək üçün sözü **filologiya elmləri doktoru, professor Rəhilə Məhərrəmovaya** verdi.

R.Məhərrəmova «Görkəmli türkoloq professor Tofiq Hacıyev» adlı məruzəsində I Türkoloji Qurultayın 80 illik yubileyinin Bakıda keçirilməsinin təsadüfi olmadığını, türkologiyanın inkişafında Bakı dilçilik məktəbinin üstünlüyünü, türkologiyanın elmi mərkəzinə çevrilməsini, dilçi alimlərimizin, xüsusi ilə də 70 illik yubileyini keçirdiyimiz Tofiq Hacıyevin xidmətlərini, bu sahədəki fəaliyyətinin türkoloji aləmə gətirdiyi yenilikləri göstərdi. Məruzəçi qeyd etdi ki, Tofiq Hacıyev Azərbaycan dilçiliyi məsələlərini geniş türkoloji kontekstdə tədqiq edən alimdir, həm də dilçilik məsələlərinin həllində özünü yenilikçi kimi tanıtmışdır. O, Azərbaycan dialektləri arasında ilk dəfə keçid şivələrini aşkarlayaraq tədqiqat işi aparmış, bu da tanınmış dilçilər tərəfindən tapıntı kimi qiymətləndirilmişdir.

Prof. Tofiq Hacıyev Sovetldər dövründə çox mötəbər qurum sayılan Sovet Türkoloqlar Komitəsinin, eləcə də «Sovet türkologiyası» jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Sovetlər dağılandan sonra onun türkoloji fəaliyyəti yeni vüsət və yeni istiqamət alır. Belə ki, o, Türkiyə türkcəsi ilə də ümumi türkoloji kontekstdə müntəzəm məşğul olur. 1996-cı ildə Uluslararası türk dili qurultayında prof. Tofiq Hacıyev «Ortaq türk dili yaradılması» ilə əlaqədar öz prinsipial fikirlərini söyləmişdir.

Professor Tofiq Hacıyev ilk növbədə Azərbaycan dili tarixinin görkəmli tədqiqatçısıdır. Ədəbi dilin təşəkkülü, formalaşması, dövrləşdirilməsi kimi vacib problemlər onun yaradıcılığının əsasını təşkil edir. BDU-da «Azərbaycan ədəbi dili tarixi» proqramının, dərslik və dərs vəsaitlərinin hazırlanması Tofiq Hacıyevin adı ilə bağlıdır. Əlbəttə, ədəbi dilin ayrı-ayrı inkişaf mərhələləri ilə bağlı aparıcı mövqedə olan yazıçıların dilini bütün səviyyələrdə tədqiq etməsi, ona ədəbi dilin hər mərhələsi üçün fonetik, qrammatik və leksik normaların dəqiq müəyyənləşdirilməsinə imkan yaratmışdır. Beləliklə, Azərbaycan ədəbi dilinin inkişaf problemlərini mərhələ-mərhələ tədqiq edən alim, sonda ədəbi dilin dövrləşdirilməsində özünün qəti sözünü deyə bilmişdir. Tofiq Hacıyev Azərbaycan ədəbi dili tarixinin ilk elmi dövrləşdirilməsini aparmışdır. Tofiq Hacıyev Azərbaycan torpaqlarının çox qədim dövrlərdən, yəni bu ərazinin tarixi haqqında məlumat verilən dövrdən türk vətəni olması fikrini söyləməklə, dil materialı ilə tarix yazmağın, tarixi hadisələri dəqiqləşdirməyin nümunəsini vermişdir.

Rəhilə Məhərrəmova məruzəsində iştirakçıların diqqətini belə bir məsələyə də cəlb etdi ki, xalqın dilinin tarixi ilə bağlı professor Tofiq Hacıyevin gətirdiyi yeniliklərdən biri də türk-şumer dil əlaqədəri ilə bağlıdır. Tofiq müəllimin belə bir fikrini nümunə gətir-

di: «... bizim üçün ən azı həqiqət olan odur ki, üç min beş yüz əvvəl, şumer mətnlərinin yazıya alındığı dövrdə türk dili də mövcud olmuşdur və əldə edilən faktlar ya şumerdən türkcəyə, ya da türkcədən şumercəyə keçmişdir». Azərbaycan ədəbi dili tarixi, yazıçı dili ilə bağlı Tofiq Hacıyevin son dövrlərə qədər çap etdirdiyi kitabları dilimizi zənginləşdirən əsərlərdəndir.

Görkəmli alim türkologiyanın hansı sahəsində tədqiqat aparmışsa, həmişə axtarışda olmuş, dilçiliyimiz üçün yeni olan, elmi əhəmiyyət daşıyan nəticələr əldə etməyə nail olmuşdur. Azərbaycan dilçiliyinin və müasir türkologiyanın inkişafı və formalaşmasında Tofiq Hacıyevin öz dəsti-xətti və öz mövqeyi vardır. Bu yaradıcılıq yolunda Tofiq Hacıyevə yeni-yeni uğurlar, möhkəm cansağlığı və uzun ömür arzulayırıq.

**Filologiya elmləri doktoru, professor Q.Namazov «Tofiq Hacıyev görkəmli ədəbiyyatşünasdır»** mövzusunda etdiyi məruzəsində yubilyarın ədəbiyyatşünaslıqla bağlı fəaliyyəti barədə geniş danışdı. Tofiq Hacıyevin elmi fəaliyyətində ilk qələm məhsulunun ədəbiyyatla bağlı olduğunu yığıncaq iştirakçılarının diqqətinə çatdırdı. Hələ tələbə ikən «Ədəbiyyatşünaslıq terminləri lüğəti»nin layihəsi haqqında yazdığı məqalə «Roma müntəxəbatı» kitabına etdiyi tərcümələr onun gələcəkdə ədəbiyyatçı olacağından xəbər verirdi. Dil üzrə aspirant olduğu halda Mirzə Ələkbər Sabir haqqında «Şairin fırçası» adlı məqaləsi çap olunur. Sonralar cavan yaşlarında onun yazdığı məqalələr ədəbiyyatşünasların, o cümlədən akademik Məmməd Arifin diqqətini çəkmişdir. Dahi yazıçımız Mir Cəlalın «Bir gəncin manifesti» əsəri ilk dəfə Tofiq Hacıyev tərəfindən roman kimi səciyyələndirilmişdir.

Professor Tofiq Hacıyev Azərbaycan dilçiliyinin və türkologiyanın görkəmli şəxsiyyətinə çevrildikdən sonra da, ədəbiyyatşünaslıq fəaliyyətini davam etdirir, bir tərəfdən müasir ədəbi prosesi müntəzəm izləyir, Azərbaycan şeir və nəsrinin bilicisi kimi ədəbi tənqidlə məşğul olur, digər tərəfdən klassik ədəbiyyatın araşdırıcısı kimi fəaliyyət göstərir. O, ümumtürkoloji əhəmiyyət kəsb edən əski ədəbiyyat örnəkləri üzərində işləyərək Orxon-Yenisey kitabələrinin, «Dədə Qorqud», «Qutadğu bilik», Mahmud Kaşğarinin «Divanü lüğət-it-türk» əsərlərinin bədii ədəbiyyat nümunələri kimi təhlilini verir və ədəbi-bədii baxımdan araşdırır.

Professor Tofiq Hacıyev AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun altı cildlik «Azərbaycan ədəbiyyatı tarixi»nin birinci cildində «Dədə Qorqud kitabı», ikinci cildində «Qədim türk ədəbiyyatı» bölmələrinin müəllifidir. BDU-nun müasir Azərbaycan ədəbiyyatı kafedrasının hazırladığı «Azərbaycan sovet ədəbiyyatı» dərsliyində «Əli Kərim» bəhsini o yazmışdır. Tofiq Hacıyevin ədəbiyyatla bağlı fəaliyyəti yuxarıda sadalananlarla məhdudlaşmır. O, həmçinin «Dədə Qorqud» ensiklopediyası»nın əsas müəlliflərindən və birinci cildinin redaktorudur, «Üzeyir Hacıbəyov ensiklopediyası»nın müəlliflərindəndir. Onun «Yunus Əmrə və Füzuli» araşdır-

ması, «XX əsr realist Azərbaycan ədəbiyyatı» oçerki dəyərli əsərlərdən sayılır.

Professor Tofiq Hacıyev AMEA-nın Folklor İnstitutunun nəşr etdiyi «Dədə Qorqud» elmi-ədəbi jurnalının baş redaktorudur. Onun bu baxımdan qədim türk şeiri mövzusunda tədqiqləri folklorşünaslarımız üçün mühüm dəyər kəsb edir. IX əsr tatar-bulqar şairi Mikayıl Baştunun «Şan qızı dastanı» mövzusundakı araşdırmalarında Tofiq Hacıyev dastanın poetikasını açmış, «Dədə Qorqud» kitabı ilə müqayisələr aparmış, dastanın süjeti əsasında türk dünyasının əski tarixi coğrafiyasını göstərmişdir. Tofiq Hacıyev dastanı dilimizə tərcümə etmiş, bununla da qədim türk poeziyası, qədim türk dastançılıq təcrübəsi haqqında aydın təsəvvür yaratmışdır. Beləliklə, alim dastanın geniş monoqrafik təhlilini vermişdir. Uzun illərdir ki, Tofiq Hacıyev şeir, nəsr və dram əsərlərimizin sənətkarlıq təhlili ilə məşğul olur. Məruzəçi son olaraq fikrini belə tamamladı: «İlk elmi yaradıcılığına ədəbiyyatçı kimi başlamış görkəmli türkoloq-dilçimiz professor Tofiq Hacıyev bu gün də öz dilçilik fəaliyyəti ilə yanaşı, ədəbiyyatşünaslıqda da elmi axtarışlarını davam etdirir».

Azərbaycan MEA-nın müxbir üzvü, professor A.Məhərrəmov yubilyarı təbrik etmək üçün ilk sözü **Azərbaycan Respublikası Təhsil nazirinin müavini professor İradə Hüseynovaya** verdi. Professor İ.Hüseynova öz çıxışına hörmətli yubiley iştirakçılarını və Türkoloji Qurultaya təşrif buyurmuş hörmətli xarici qonaqları salamlamaq və ən xoş arzularını bildirməklə başladı. Daha sonra çıxışını belə davam etdirdi:

Hörmətli, Tofiq müəllim! Sizi, görkəmli türkoloqu, bacarıqlı elm və tədris təşkilatçısını, ləyaqətli Azərbaycan ziyalısını Təhsil Nazirliyinin rəhbərliyi adından, şəxsən öz adımdan anadan olmağınızın 70 illiyi və elmi-pedaqoji fəaliyyətinizin 50 illiyi münasibətilə səmimi qəlbdən təbrik edir və Sizə bəslədiyim dərin hörmət və sonsuz ehtiramımı hüzurunuza yetirib ən xoş arzularımı bildirirəm. Əziz Tofiq müəllim, böyük məmnuniyyətlə dilə gətirdiyim bu sözlər böyük alim, misilsiz vətən və millət təəssübkeşi, türkçü və yenilməz azərbaycançı kimi tanıdığım və hörmət bəslədiyim Sizə olan dərin hörmət və ehtiramımın parlaq ifadəsidir. Biz Sizi BDU-nun korifey alimlərindən biri kimi tanımışıq və bu gün də tanıyırıq, gələcəkdə də belə tanıyacağıq.

Bu gün etiraf etməklə yanaşı, iftixar hissi ilə deməliyəm ki, Sizin Azərbaycan dilinin tarixinə, ədəbi dilimizin təşəkkülü və inkişafı yollarına, xüsusən xalqımızın ana kitabı sayılan «Dədə Qorqud kitabı»na aid çoxsaylı dərslikləriniz, monoqrafiyalarınız, kitablarınız bütöv bir elmi məktəbin əsasını qoymuşdur. Təkcə bu uğurlara görə Siz Azərbaycanda deyil, onun hüdudlarından çox-çox uzaqlarda, xüsusən türk dünyasında böyük bir türkoloq alim kimi tanınır və sevilirsiniz. Onu tam əminliklə deyə bilərəm ki, Tofiq Hacıyev Azərbaycan ziyalılığına örnək olan alim, müəllim kimi millətimizin sevimlisinə çevrilmişdir və eyni zamanda Tofiq müəl-

lim çox yüksək mənəvi keyfiyyətlərə, yüksək etika və əxlaqa malik olan şəxsiyyətdir, alimdir, müəllimdir.

İ.Hüseynova yubilyar haqqında fikirlərini belə yekunlaşdırdı: Hörmətli Tofiq müəllim, Sizi şərəfli ömrünüzün bu müdrik çağında bir daha ürəkdən təbrik edir və Ulu Tanrıdan Sizə möhkəm cansağlığı, elmi-pedaqoji fəaliyyətinizdə daha böyük uğurlar diləyirəm.

İ.Hüseynova Tofiq Hacıyevlə bağlı çıxışını ulu öndərimiz Heydər Əliyevə həsr etdiyi monoqrafiyasını yubilyara ən xoş arzularla ərməğan etməklə tamamladı.

Hörmətli qonaqlardan Azərbaycan Respublikası **Baş nazirinin müavini Əli Həsənov** çıxışını BDU-nun professor-müəllim heyətinə, tələbələrinə və qonaqlara müraciət etməklə başladı:

«Çox hörmətli tədbir iştirakçıları, BDU-nun çox hörmətli professor-müəllim və tələbə heyəti, mötəbər qonaqlar, xanımlar və cənablar! Məni bu yubiley yığıncağına dəvət etdiklərinə görə universitetin kollektivi qarşısında hörmətli professorumuz Tofiq Hacıyev haqqında bir neçə kəlmə ilə öz fikrimi bildirmək üçün imkan yaratlıqlarına görə çox hörmətli Abel müəllimə və yubilyarımız Tofiq müəllimə öz dərin təşəkkürümü bildirirəm. BDU-nun professor-müəllim və tələbə heyəti qarşısında danışmaq çox çətin və məsuliyyətlidir. Çünki BDU bu gün dünya miqyasında, dünya səviyyəsində təhsil ocaqlarından birinə çevrilibdir, sizin universitet yarandığı dövrdən ölkəmizdə çox böyük, şanlı alimlər yetiribdir. Həyatımızın inkişafının müxtəlif istiqamətlərində çalışa bilən peşəkar mütəxəssislər hazırlayıbdır. Ümumiyyətlə, BDU Azərbaycan tarixində xüsusi yer tutur.

Tofiq müəllim uzun müddətdir ki, universitetdə türkologiya elminin, filologiyanın bugünki dünyanın qəbul etdiyi xüsusiyyətlərini Azərbaycan gəncliyinə aşılayır və tədris edir.

Tofiq müəllim çox təvəzökardır, çox həssasdır, onun xüsusi danışıq ləhcəsi var, 70 il əvvəl kənddə danışdığı kimi danışır. O, sadə və şəffaf həyat yolu keçmişdir, öz zəhməti sayəsində bu məqamə çatan insandır. Doğulduğu yerə, torpağa çox bağlıdır. Çox təəssüf hissi ilə qeyd edirəm ki, 70 yaşını keçirdiyimiz vaxt Tofiq müəllimin doğulduğu torpaq düşmən əlindədir. Əminəm ki, o torpaqlar mütləq azad olunacaq və bu gün biz canlı şahidik ki, böyük öndərimiz Heydər Əliyevin davamçısı ölkə prezidenti möhtərəm İlham Əliyevin bu istiqamətdə gördüyü işlər, çəkdiyi zəhmət mütləq bəhrəsini verəcəkdir. Prezidentimiz açıq şəkildə bəyan edib ki, ərazi bütövlüyü məsələsinə heç bir güzəşt ola bilməz, torpaqlar azad olunacaqdır. İ.Əliyev Azərbaycan xalqına arxalanaraq ulu öndərimizin bu sahədə siyasətini mütləq başa çatdıracaqdır, torpaqları azad edəcəkdir. Həmin torpaqlarda doğulub böyüyən bütün insanlar kimi Tofiq müəllim də öz doğma yurdunu çox yaxın zamanlarda hökmən görəcəkdir.

Tofiq müəllim, Siz həmişə belə təravətli qalasınız, sadəliyinizi, insanlığı heç kəs sizin əlinizdən ala bilməsin!»

**Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar** öz nitqinə «Azərbaycan Yazıçılar Birliyi adından görкəmli alimimiz, böyüк ziyalımız, ləqayətli insan Tofiq Hacıyevi 70 yaşı münasibətilə ürəкdən təbriк edirəm» - sözləri ilə başladı. O, qeyd etdi кi, Baкı Dövlət Universitetində кafedra müdiri, AMEA-nın müxbir üzvü Tofiq Hacıyev həm də ədəbiyyatşünaslıq tarixi, tənqid tarixi sahəsində xidmətlərinə görə layiq olduğu bir qurumun – Yazıçılar Birliyinin Ağsaqqallar Şurasının üzvüdür. Keçən əsrin 60-cı illərində bir çox dilçilər ədəbiyyatşünaslıqla da, tənqidlə də məşğul olmağa başladılar. Tofiq Hacıyev onların çoxunun müəllimi, elmi rəhbəri idi, eyni zamanda da hamısının ağsaqqalıdır. Tofiq müəllim sırf dilçiliкlə məşğul olaraq dəyərli əsərlər yaratdığı кimi, ədəbi tənqidlə, ədəbiyyatşünaslıqla da ciddi məşğul olaraq çox qeyrətli məqalələrin, кitabların müəllifidir. Təbiətcə təvazöкar olan Tofiq müəllimin doğum gününü – may ayının birini bütün dünya bayram edir. O, 50 illiк fəaliyyət tarixində öz əməyi ilə bu mərtəbəyə gəlib çatıb. Mən Tofiq müəllimlə dəfələrlə xarici səfərlərdə – İranda, Türкiyədə olmuşam və bu ölкələrdə Tofiq Hacıyevin bir müəllim кimi, bir türкoloq кimi necə böyüк nüfuza maliк olduğunu, elmi çıxışlarının necə böyüк maraqla qarşılandığının şahidi olmuşam.

Tofiq müəllimin yubileyi hamımızın bayramıdır, türк dünyasının bayramıdır. Tofiq müəllim, Sizin yubileyinizi, bayramınızı Yazıçılar Birliyində кeçiriləndə, söz verirəm кi, bütün salon çiçəкlə dolacaq, Sizi isə böyüк hədiyyələrlə təbriк edəcəyiк.

Növbəti çıxış üçün soz **AMEA-nın aкademiк кatibi professor A.Axundova** verildi. Ağamusa müəllim 50 ildən – yarım əsrdən artıq tarixi olan tələbə yoldaşı, aspirant dostu Tofiq müəllimi bu gün ömrünün 70 illiк zirvəsində, təntənəli şəraitdə gördüyü üçün sevinc hissi кeçirdiyini qeyd etdi. Hələ universitetdə oxuyarкən məndə belə bir inam əmələ gəlmişdi кi, Tofiq Hacıyev gələcəкdə Azərbaycan filologiya elminin görкəmli nümayəndəsi olacaqdır. Mən çox şadam кi, mənim inamım gerçəкləşdi.

Sözünə davam edərəк Ağamusa müəllim I Türкoloji Qurultayın 80 illiк yubileyini çox böyüк tarixi hadisə кimi səciyyələndirdi. Təsadüfi deyil кi, bu tarixi hadisənin əhəmiyyətini nəzərə alaraq Azərbaycan Respubliкasının hörmətli prezidenti cənab İ.Əliyev I Türкoloji Qurultayın 80 illiк yubileyinin кeçirilməsi haqqında xüsusi sərəncam imzaladı. Bu sərəncamın həyata кeçirilməsini AMEA-nın Rəyasət Heyətinə və Azərbaycan Respubliкasının Təhsil Nazirliyinə tapşırdı. Nazirlər Kabinetinə də göstəriş verdi кi, bu sərəncamın yerinə yetirilməsinə necə lazımsa кöməкliк göstərsin. Çox sağ olsunlar кi, Nazirlər Kabineti də öz кöməyini əsirgəmədi. Nəticədə Türкoloji кonfrans da yüкsəк səviyyədə кeçdi və bu gün qətnamə qəbul etməкlə öz işini başa çatdırdı. I Türкoloji Qurultaya həsr olunmuş yubiley кonfransının bir nisgili var idi. O da Beynəlxalq Elmi кonfransda 80 il bundan öncə кeçirilən qurultay iştiraкçılarından, təbii кi, indiyəcən bir nəfər də sağ qalan olmamasıdır. Bunların az qismi öz əcəli ilə dünyasını dəyişib, çox

hissəsi isə 1937-38-ci illərdə repressiya qurbanlarına çevrilib. Amma bu nisgillə bərabər bir böyük inam da var idi, əgər həmin qurultayın iştirakçılarının çoxu həyatda yoxdursa da – bu təbiidir – lakin onun ideyaları yaşayır, həmin ideyaları davam etdiyrməyə qadir olan böyük alimlər ordusu yetişib. Bu alimlər həm Türkiyədə, həm Azərbaycanda, həm də Mərkəzi Asiyada I Türkoloji Qurultayın ideyalarını həyata keçirmək gücündədir. Belə alimlərin arasında bizim Tofiq müəllim – AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Tofiq Hacıyev də vardır. İş elə gətirib ki, mən öz tələbə dostumun, eyni zamanda bu gün alim dostumun bir dəfə yubileyini təbrik etmişəm. Düz bir həftə öncə AMEA-nın Rəyasət Heyətində, Rəyasət Heyətinin xüsusi qəqarı ilə bir sənədi - təxminən yarım məruzəyə bərabər bir sənədi oxumaqla Tofiq müəllimi təbrik elədik. AMEA-nın prezidenti akademik M.Kərimov akademiyanın ən yüksək mükafatı olan fəxri fərmanla Tofiq müəllimi şəxsən təltif etdi və həmin fərmanı təzə çiçək dəstəsi ilə ona təqdim etdi. Bu gün mən burada Tofiq müəllimi çox sevən, onunla fəxr edən bir təşkilatın – Nəsimi adına Dilçilik İnstitutunun nümayəndəsi kimi də çıxış edirəm və Dilçilik İnstitutunun kollektivi adından bunu ona hədiyyə kimi təqdim edirəm. Sağ olun!

**Azərbaycan Dövlət Radio və Televiziya şirkətinin sədri, millət vəkili, professor Nizami Xudiyev** çıxışını bu sözlərlə başladı: Bu gün bütün Azərbaycan xalqının, bü gün ictimaiyyətimizin ən əziz və ən sevimli günlərindən biridir. Belə ki, Azərbaycanın həyatında, Azərbaycan xalqının həyatında, Azərbaycan elminin inkişafında xüsusi rolu və xüsusi xidmətləri olan professor Tofiq Hacıyevin bu gün anadan olmasının 70 illiyidir, elmi-pedaqodi fəaliyyətə başlamasının 50-ci ildönümüdür.

İlk baxışda Tofiq müəllimə bu yaşı vermək olmaz. Bu cür elmi, gərgin fəaliyyəti ilə, bu cür zəhməti ilə bərabər özü də çox sağlam və gümrah qalmışdır. Bütün türk dünyasını, bütün tərəqqipərvər bəşəriyyəti sevindirir ki, Azərbaycan alimi bu yaşında da belə sağlam, belə gümrah, belə yaradıcı bir insandır. Mən bir cəhəti yada salmaq istəyirəm ki, Azərbaycan - xüsusilə Bakı şəhəri həmişə türk dünyasının şəhərləri arasında ən önəmli yer tutmuşdur. Bu gün də öndədir. İndi I Türkoloji Qurultayın 80 illik yubileyini keçiririk. Bütün türk dünyası əhatəsində ilk oalarq 1926-ci il fevral ayının 26-dan mart ayının 5-ə qədər Bakı şəhərində I Türkoloji Qurultay keçirilmişdir. Heç təsadüfi deyil ki, Bakı şəhəri Kiçik Asiya ilə Orta Asiya ölkələri arasında keçid mərkəz nöqtəsi rolunu oynayır.

Rəhmətlik möhtərəm prezidentimiz Heydər Əliyevin səyi nəticəsində «Sovet türkologiyası» jurnalı bütün türk dilli respublikalardan fərqli olaraq 1970-ci ildən Bakıda nəşr olunur və uzun müddətdir ki, jurnalın nəşri davam etdirilir. Arzum budur ki, Bakı şəhəri həmişə türkologiyanın mərkəzlərindən biri və birincisi olsun.

Möhtərəm prezidentlərimiz türk dünyasına, türk dilinə, Azərbaycan xalqının rifahına, onun bugünkü inkişafına həmişə diqqət yetirmişlər.

Bu gün yubileyinə yığışdığımız hörmətli Tofiq müəllim bizim üçün çox ləyaqətli, istedadlı, sevimli bir insandır və ilk növbədə böyük alimdir. Tofiq müəllim elmin təkcə dilçilik sahəsində deyil, həm də digər sahələrində də novatordur, öz mütərəqqi ənənələri ilə seçilən bir türkoloqdur, bir alimdir. Türkiyədə iştirak etdiyimiz toplantılarda o, öz cəsarətli çıxışları ilə həmişə diqqət mərkəzində olur.

Tofiq müəllim böyük alim olmaqla bərabər, həm də böyük müəllim və pedaqoqdur. Gözəl mühazirələri, məntiqli çıxışları, verilən suallara dolğun cavabları elə bil bir məktəbdir. Gələcək nəsillərə, gələcək müəllimlərə bir məktəbdir. Tofiq müəllimin danışıq dili necədirsə - sadə, aydın, mükəmməl – yazı nitqi də şifahi nitqi kimi aydın və parlaqdır. Mən Tofiq müəllimin məqalələrini oxuyanda elə bil onunla söhbət edirəm. Dili olduqca sadə və aydındır. Tofiq müəllim Ş.İ.Xətainin dili haqqında, görün nə yazır? «Xətai dilində aforizmlər handan-hana gəlmir. Elə bil ki, nitq hikmət arxasında batır». Mən bu sözləri Tofiq müəllimin özünə, onun dilinə aid edirəm. Çünki onun nitqində, həm də yazı nitqində o hikmətli sözlər, o üslub gözəlliyi handan-hana gəlmir, bütünlüklə onun cümlələrində hikmət, hikmət arxasında batıb gedir. Bunun özü də bir məktəbdir. Tofiq müəllim uzun müddətdir ki, BDU-da çalışır, türkologiya kafedrasına rəhbərlik edir. Onun belə keyfiyyətlərini və xoşbəxtliyini sadalayarkən fikirləşirsən ki, nə yaxşı ki, Tofiq Hacıyev 1937-ci ildən sonra dünyaya gəlib və yaşayır. Onun fikirləri, yaradıcılığı, qabiliyyəti o zamanlar dərhal diqqəti cəlb edərdi. Necə ki, 131 nəfər türkoloq I Türkoloji Qurultayda tanındı. 1937-ci ildən sonra onların biri də sağ qalmayıb, əksəriyyəti ya güllələnib, ya da Sibirdə çürüyüb.

Bizim böyük xoşbəxtliyimiz ondadır ki, indiki vaxtda və indiki şəraitdə alimlərimizin, elmimizin inkişafı üçün həm xalq tərəfindən, həm də başlıca olaraq dövlətimiz tərəfindən hər cür şərait və imkan yaradılmışdır.

Tofiq müəllim gözəl və görkəmli ictimai xadimdir, keçirilən hər hansı bir tədbirdə ya çıxış edir, ya da məqaləsi ilə iştirak edir. Həm bir vətəndaş kimi, həm də AMEA-nın müxbir üzvü kimi, ictimai fəaliyyəti onun şöhrətini yüksəldir. Tofiq müəllimin bir gözəl xüsusiyyətini də sizin nəzərinizə çatdırmaq istəyirəm. Belə ki, o kimə istiqamət verməyi, kimə rəhbər olmağı elə bir əvvəlcədən sezir. Ona görə də onun seçdiyi, rəhbərlik etdiyi dilçi kadrlar özünə layiq olur. Tofiq müəllimin yetişdirmələri də özünə layiqdir. Tofiq müəllim say deyil, sanbal düşünən insandır. Biz Tofiq müəllimi gözəl, istedadlı alim kimi, bir də dəyərli insan kimi, yaxşı ictimai xadim kimi, gözəl müəllim kimi görmüşük. Bundan sonrakı fəaLiyyətini də belə görmək istəyirik.

Tofiq müəllim, Sizi mən öz mülləimim hesab edirəm. Sizi radio və televiziyanın коllекtivi adından təbriк edirəm!

Türк dünyasının dəyərli şəxsiyyətlərindən biri olan cənab **İhsan Doğramacının** Tofiq müəllimə – yubilyara ünvanladığı təbriкini oxumaq üçün söz **doкtor-professor Rasim Özyureке** verildi. Təbriкdə deyilir:

Hörmətli professor-doкtor Tofiq Hacıyev, türк dünyasına və türк dilinə göstərmiş olduğunuz əvəzsiz xidmətlər və 70-ci yaş gününüz münasibətilə Sizi ürəкdən təbriк edir və Sizə şərəfli və məsuliyyətli işlərinizdə ümidlərinizin davamını arzulayıram. İhsan Doğramacı, 25 may 2006.

**Xalq şairi Zəlimxan Yaqub** çox alovlu bir çıxış etdi. O, yubilyarın təbriкinə bu sözlərlə başladı: Türк dünyasından yaza-yaza turanlaşan, Dədə Qorquddan yaza-yaza dədələşən, gənclərdən yaza-yaza gəncləşən, müasirlərdən yaza-yaza müasirləşən, dilimizin qüdrətindən, sözümüzün sehrindən, nəslimizin кəşflərindən, poeziyamızın poetiк məqamlarından yazdıqca müdriкləşən, Doğudan Batıya, Altaydan Anadoluya elmi təfəккürünün sayəsində türк dünyasını qucaqlayan, bütün ömrü boyu «teкhecalı кəlmə yazılsın başqasına gərəк» o heyкəltay idealıynan yaşamış Qaşqarlı Mahmuddan, Əhməd Yəgəvidən, Yunus Əmrədən, Beкtaş Vəlidən bu günə qədər yaşayan türк dünyasının böyüк şəxsiyyətlərini öz mənəvi varlığında, alim ömründə yaşadan və birləşdirən, cismani yaşı 70 olan, mənəvi yaşı türкün yaşı qədər olan türк oğlu türк böyüк alimimizə eşq olsun, salam olsun!

Tofiq müəllim deyiləndə dahilər yada düşür. Hansı dahilər? Tofiq müəllimin ovuc-ovuc çeşmə кimi gözündən dumduru su кimi içdiyi dahilər yada düşür.

Tofiq müəllim ona görə xoşbəxtdir кi, elmi də, ədəbi də, mərifəti də, şəxsiyyəti də, fəaliyyəti də, ictimai dəyərləri də, əxlaqi sərvətləri də, ölçüləri də türкün böyüкlüyünə, türкün qurumuna layiq şəкildə qurulub. Tofiq Hacıyev кimlərdən yazır: «Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya» - deyən Dədə Qorquddan, «Məndə sığar iкi cahan, mən bu cahana sığmazam, Gövhəri-laməкan mənəm, кövnü məкana sığmazam» - deyən Nəsimidən, «Həqir baxma mənə, кimsədən sağınma кəməm, Fəqiri-padişahaca, gədayi möhtəşəməm» - deyən Füzulidən, «Biz dünyadan gedər olduq, qalanlara salam olsun» - deyən Yunus Əmrədən, «Çalxalandıqca, bulandıqca zaman nehrə кimi Yağı yağ üstə çıxır, ayranı ayranlıq olur» - deyən böyüк Sabirdən yazır.

Tofiq müəllim кimdən yazırsa, nədən yazırsa böyüк alim ehtirasından, alim mədəniyyətindən yazır. Tofiq Hacıyevlə dünyanın bir çox ölкələrində, bir çox ali məclislərində, səfərlərdə olmuşam. O, hər yerdə Azərbaycan xalqına, Azərbaycan elminə, Azərbaycan alimlərinə başucalığı gətirir. Böyüк müəllimlərinə ehtiramını, istedadlı tələbələrə qayğısını heç vaxt əsirgəmir. Bildiyimiz кimi, bu vaxta qədər böyüк alimlərimizin, böyüк ziyalılarımızın, böyüк şəxsiyyətlərimizin çox gözəl yubileyləri olub. Amma türкün Allahı,

Tofiq müəllimin 70 illiyini görün hansı məqama gətirib çıxarıb. Elə bir məqama кi, Doğudan Batıya türк dünyası bizim məкtəblərin qibləgahı sayılan Baкı Dövlət Universitetində türкün ruhuynan bir yerdə, Tofiq müəllimlə bir yerdə olan bayrama, mübarəк günə. Bundan böyüк nə bayram ola bilər? Eşq olsun, bu mübarəк günə! Ulu tanrıya eşq olsun кi, uzun illər həsrət qaldığımız, 70-80 il кöкü budaqdan, əti dırnaqdan, кözü ocaqdan, başı papaqdan ayrı salmaq istəyən bolşeviк rejimi, кommunist rejimi, Stalin dönəmi - hamısı arxada qaldı, türк ruhu qələbə çaldı. İnşallah, indən belə də qələbə çalacaq. Çünкi türкün Tofiq müəllim кimi şəxsiyyətləri, alimləri vardır. Eşq olsun onlara!

**Türкiyənin Atatürк dil Qurumunun başqanı sayın Şüкrü Haluк Aкolına** çıxış üçün söz verildi. Öz çıxışına natiq belə başladı: Çox qiymətli hocamız professor, doкtor Tofiq Hacıyev, iкi bayram yaşayırıq: biri I Türкoloji Qurultayın 80-ci ildönümü dolayısı ilə Baкıda yapılan qurultaya qatıldıq. Türкiyə heyəti olaraq, bundan böyüк bir mutluluq duyduq. 80 il öncə həmin qurultayın toplandığı, yapıldığı salonda yenə də türк dünyasının alimləri bir araya gəldi, türкoloji кonusunu кonuşdular. İкinci bayram, o кi, Sizin 70-ci yaşınıza gəldiyinizi burada öyrəndiк. Çox böyüк bir mutluluq duyduq. Sizin 70-ci yaşınızı təbriк ediriк. Sizə daha gözəl uzun ömürlər diləyiriк. Sizin adınızı biz üzünüzü görmədən öncə əsərlərinizdən oxumuşduq, adınızı yapdığınız çalışmalardan duymuşduq, amma üzünüzü görməmişdiк. Daha sonra Sovetlər Birliyinin dağılması ilə birliкdə gedişlər-gəlişlər oldu və şahsınızı tanıdıq. Tofiq Hacıyev sadəcə yazıları ilə, bilimser çalışmaları ilə, araşdırmaları ilə deyil, insani baxımları ilə də, uğurlu söhbətləri ilə də, gülər üzü ilə də insanı sevindirir. Tofiq Hacıyevin yazdığı əsərləri yan-yana qoysaq, mən əminəm кi, кəndi bayunu aşar. Allah sizə daha çox uzun ömürlər versin. Sizə cansağlığı arzu edirəm.

**BDU-nun reкtoru, prof. Abel Məhərrəmov** yığıncaqda çoxlu reкtor həmкarlarının iştiraк etdiyini nəzərə çatdırdıqdan sonra çıxış üçün sözü ağsaqqal reкtorlardan olan **Azərbaycan Respubliкası prezidenti yanında Dövlət İdarəçiliк Aкademiyasının reкtoru professor Seyfəddin Qəndilova** verdi. Seyfəddin müəllim, yubiley iştiraкçılarına «Hörmətli toplantı iştiraкçıları, çox əziz və hörmətli Tofiq müəllim, bu gün BDU-nun çox əlamətdar bir günüdür. Bizim elmimizin böyüк əlamətdar bir günüdür» - deyə müraciət etdi. Mən Tofiq müəllimlə bağlı bircə cəhəti nəzərinizə çatdırmaq istəyirəm. Biz Dövlət İdarəçiliк Aкademiyasında çox görкəmli türкoloq Murad Acı ilə görüş кeçirirdiк. Həmin şəxsin türкün tarixinin obyeкtiv yazılmasında, öyrənilməsində böyüк xidmətləri vardır. Böyüк dünyagörüşə maliк bir alimdir. Tofiq müəllim Murad Acının «Qıpçaq çölünün yovşanı» əsərini Azərbaycan dilinə tərcümə etmişdir. Murad Acı bizim Tofiq müəllimi son dərəcə böyüк bir alim кimi qiymətləndirdi, onun bu sahədə gördüyü işlərə bir mütəxəssis кimi verdiyi böyüк qiymət məni bir azərbaycanlı кimi olduqca sevindirdi, Tofiq müəllimi çoxdan tanıyan bir

insan kimi, çox fərəhləndirdi. Həqiqətən, Tofiq müəllim bizim hamımızı fərəhləndirib, universitetimizi çox şöhrətləndirib. Azərbaycan elmini, ölkəmizi çox şöhrətləndirib. O, bizim dilimizin keşiyində durur. Tofiq müəllimin bugünkü xidməti xüsusilə böyükdür. Türkiyə ilə Azərbaycanı yaxınlaşdırmaqda böyük xidmət göstərib və türk dünyasının qarşısında duran bugünkü problemlərin həllində böyük xidmət göstərir. Mən Tofiq müəllimə bu səmərəli, nəcib işində, elmi-pedaqoji fəaliyyətində müvəffəqiyyətlər arzu edirəm. Tofiq müəllim, bizim kollektivimiz - Dövlət İdarəçilik Akademiyasının kollektivi də Sizi sevir, tanıyır və çox yüksək qiymətləndirir. Çox sağ olun!

**Bakı Slavyan Universitetinin rektoru, professor Kamal Abdullaya** söz verildi: Əziz dostlar, əziz Tofiq müəllim! Yəqin ki, mən Tofiq müəllimin tələbələri adından danışa bilərəm. Çünki Tofiq müəllim, doğrudan da, auditoriyada, zalda oturan gənclər qədər yaşım olanda mənə dərs deyib. Biz hamımız Tofiq müəllimə oxşamağa çalışırdıq, onun kimi elmdə uğurlar əldə etməyə, qazanmağa çan atırdıq. O vaxt Tofiq müəllim gənc, enerjili elmlər doktoru idi. Əgər bu gün nəyə nail olmuşuqsa, bu ona görədir ki, Nyutonun sözlərini bir qədər dəyişsək, «Biz nəhənglərin çiynindən baxmağı bacarmışıq». O nəhənglərdən biri də, şübhəsiz, Tofiq Hacıyevdir.

Əziz Tofiq müəllim, mən Sizin barədə deyilən bir çox sözləri - bu zalda səslənən təəssübkeş millətçi bir insan, ləyaqətli alim, öz elminin, öz millətinin təəssübünü ürəkdən çəkən bir ziyalı sözlərini təsdiqləyən bir hərəkəti, sizin tərəfinizdən edilmiş bir hərəkəti nəzərə çatdırmaq istəyirəm. Bizim Bakı Slavyan Universitetində Azərbaycançılıq, Azərbaycan filologiyası şöbəsi açılarkən bir kafedra yaratdıq - türkologiya kafedrası. Çünki rus dünyasını, slavyan dünyasını türkoloji aləmdən kənar öyrənmək bəsit olardı, məsələnin tam həlli üçün kafedra açılmalı idi. Bu işə ilk xeyir-dua verənlərdən biri də Tofiq müəllim olub. Açıq demək lazımdır, bizim bəlkə də görkəmli mütəxəssislər tərəfindən kasadlığımız vardı; türkologiyaya giriş, türk dillərinin tarixi, dialektologiyası, qədim türk dilləri, qədim türk əski yazıları, bütün bunları kompleks şəkildə Slavyan Universitetinin tələbələrinə öyrətməkdə çətinlik çəkə bilərdik. O zaman çətinlik çəkərdik ki, Tofiq Hacıyev kimi şəxsiyyətlər olmasaydı. Tofiq müəllim vacib işlərini bir kənara qoyub cani dildən, təmənnasız bizim həmin yenicə ayaq açmağa başlayan türkologiya kafedrasına həftədə bir neçə dəfə gəlməklə dərsləri məccani şəkildə deməyi boynuna götürdü. Bax, bu həmin təəssübkeş, millətçi, xalqının xislətini, gəncliyinin qədrini bilən bir alimin əsl ziyalı hərəkəti idi. Bununçun universitetimizin tələbələri Tofiq müəllim, Sizi həmişə xatırlayır və inanıram ki, sizin onlarla görüşürsünüz, həmin o Sizin başladığınız türkoloji addımlardan sonra da davam edəcəkdir. Mən inanıram ki, Sizi həmişə indiki kimi gumrah, daxili energiyanı üzündə hiss etdirən bir alim, ləyaqətli insan kimi görəcəyəm.

Sizi təbrik edirəm!

Sonra **Respublikamızda Türkiyə Böyük Elçiliyinin nümayəndəsi Erkan bəy** Tofiq Hacıyevi anadan olmasının 70 illiyi münasibətilə təbrik etdi. O öz çıxışında qeyd etdi ki, Tofiq Hacıyevin türkologiya elminə, türk dünyasına xidməti bütün türk dünyasında hörmət və ehtiramla qarşılanmaqda, hər zaman üstün yer tutmaqdadır. Bu günlərdə iki xoşbəxt təsadüfün ildönümünü yaşamaqdayıq. Bunlardan birincisi, Bakıda keçirilmiş I Türkoloji Qurultayın 80-cı ildönümü, ikincisi isə hörmətli Tofiq Hacıyevin 70-ci doğum günüdür. I Türkoloji Qurultaya qatılanlardan ən sonuncusu Stalinin basqı rejimi tərəfindən 1937-ci ildə öldürüldü və eyni ildə Tofiq Hacıyev dünyaya gəldi. Bu hadisə bizə bir daha göstərdi ki, I Türkoloji Qurultayda yapılan atəş əsla sönməyəcəkdir. Tofiq Hacıyevin bu günlərdə daşıyıb gətirdiyi atəş bundan sonra da daha gur işıq saçacaqdır. Bu duyğuyla hörmətli Tofiq Hacıyevin 70-ci doğum ilini bir daha təbrik edir, ona arzu dolu xoşbəxtliklər, uğurlar diləyirəm.

Təbrik üçün növbəti söz **Cəbrayıl rayon icra hakimiyyətinin başçısı cənab Mahmud Quliyevə** verildi. O, rayon ictimaiyyəti adından yubilyarı təbrik etdi. Yeri gəldikcə natiq öncə ulu öndərimiz Heydər Əliyevin ənənəsinə sadiq qalan və bu cür yubileylərin keçirilməsi üçün şərait yaratdığına görə ölkə prezidenti möhtərəm İlham Əliyev cənablarına öz dərin minnətdarlığını bildirdi. Sonra zalda əyləşən Tofiq müəllimi sevənlərə, yebileyi keçirən təşkilat komitəsinə, onun sədri hörmətli Abel müəllimə öz minnətdarlığını izhar etdi. Təşəkkür etdi ki, bizim rayonun gözəl ziyalısı, bizim hamımızın ağsaqqalı olan Tofiq Hacıyevin belə zəhmət çəkib yubiley tədbiri keçirirsiniz. Böyük türkoloq alim, saysız-hesabsız titullara malik, görkəmli bir şəxsiyyət olan Tofiq müəllim elə dəyərli bir insandır ki, onun məziyyətləri haqqında günlərlə danışmaq olar. Tofiq müəllim doğulduğu Cəbrayıl rayonunun çoxlu elm xadimlərindəndir. Başqa bölgələrə kölgə salmaq fikrində deyiləm, Cəbrayıl rayonu elə bir rayondur ki, orada doğulan, oranın havasını udan, suyunu içən hər bir ziyalı öz elinə, torpağına bağlılığı ilə, dövlətçiliyə sədaqəti ilə seçilən insanlardandır. Bu gün yubileyinə yığışdığımız Tofiq müəllim də onun bariz nümayəndələrindən biridir. Tofiq müəllim haqqında istənilən qədər xoş sözlər demək olar. Onun ilk dissertasiyasını Cəbrayıl şivəsindən başlaması torpağa bağlılığın bir nümunəsidir. Ana dilimiz haqqında olan doktorluq dissertasiyası isə onun Ana dilinə, türkçülüyə, ölkəmizə olan məhəbbətindən xəbər verir. Tofiq müəllim cəbrayıllıların ağsaqqılıdır. Tofiq müəllimsiz keçirilən hər hansı bir tədbir cəbrayıllının ürəyincə olan tədbir sayılmır. Arzu edirəm ki, sağlamlıq durumu daha da yaxşı olsun, onun növbəti yubileyini doğma yurdu Cəbrayılda keçirək. Tofiq müəllim, Cəbrayıl ictimaiyyəti adından Sizi təbrik edirəm, Sizə uzun ömür, cansağlığı və uğurlar arzulayıram.

Sonra yubiley tədbirini idarə edən BDU-nun rektoru Abel Məhərrəmov dedi: Türk dünyasının böyük şəxsiyyətlərini sadayalanda ilk yada düşənlərdən biri Cavad Heyət olur. O, həqiqətən

türк dünyasının böyüк şəxsiyyətlərindəndir. Azərbaycanda, bütün türк dünyasında hamı onu böyüк ziyalı, böyüк alim, böyüк insan və böyüк şəxsiyyət кimi qəbul edir. İndi Sizin qarşınızda **Cavad Heyət** çıxış edəcəк. Cavad Heyət çıxışını «Hörmətli reкtor! Hörmətli Tofiq müəllim! Hörmətli iştiraкçılar, əziz dostlarım» - sözləri ilə başladı. Hamımız bu gün iкi bayram yaşadıq. Birincisi I Beynəlxalq Türкoloji Konqresinin 80 illiк yubileyidir. İкincisi də, əzizimiz, başımızın tacı, professor Tofiq Hacıyevin 70 sənəli yubileyidir. Mən aranızda yeganə həкim olduğum üçün üçüncü bir bayramı da yaşadım. Bu da ondan ibarətdir кi, Azərbaycanda ilк dəfə olaraq açıq qəlb cərrahısının кonfransını neftçilər xəstəxanasında кeçirdiк. Bu toplantıları qaçırmaq böyüк günahdır, həqiqətən böyüк günahdır. Burda mən çox sayılıb-seçilən adamlar görürəm, ən çox sevdiyim sözləri eşidirəm, ruhum tazələnir, qəm-qüssələrimi unuduram. Bizim Tofiq müəllimin 70 yaşı münasibətilə istər Türкiyədən gələn, istər Azərbaycan ailimləri, istər başqa yerdən gələnlər çox gözəl sözlər söylədidər. Tofiq müəllimin çeşidli sahələrdə yazdığı əsərlərdən danışdılar, onun alicənab şəxsiyyətindən bəhs etdilər. Onları dinlərкən, həqiqətən, gözüm yaşardı кi, bizim aramızda belə alicənab şəxsiyyətlər var. İranın arif şairlərindən Şeyx Baharı Mövlanə Cəlaləddin Rumsi haqqında belə yazır кi, mən o alicənab haqqında nə deyə bilərəm, o peyğəmbər deyil, amma peyğəmbərlər кimi кitabı var. Mən bir кitab dedim, 20 кitabı var. Bütün кitabların hamısı elmi və millidir. Tofiq Hacıyev кimi alim bulunsa da, çox azdır. Amma bulunur. Milli duyğuları daşıyan alim çox nadirdir. Tofiq Hacıyev türк sözünün tabu olduğu zamanlar türкçülüкdən bəhs etmişdir, türкçülüкdən yazmışdır. Mən onu bir örnəк кimi tanıyıram, onu bütün varlığımla sevirəm, sayıram, ona bağlıyam və onunla fəxr edirəm. O, mənim yubileyimə aid çıxan кitablarda mənim haqqımda «dilinin Məcnunu» - deyə söz işlətmişdir. Eyni sözü ona ianə etməк istyirəm. Tofiq Hacıyev millətinin Məcnunudur və bununla həm o, fəxr etməlidir, həm də biz. Əgər o, millətinin «türкoloq Məcnunu» olmasaydı, sovet dövründə türкlüкdən yaza bilməzdi, türкlüкdən o, gur səslə danışa bilməzdi. Belə bir müqəddəs gündə mən böyüк alimimizi, böyüк müəllimimizi bir daha təbriк etməк istəyirəm. Ona uzun ömür, sağlam bədən və uğurlar arzulayıram.

Növbəti söz **Azərbaycan Pedaqoji Universitetinin «Muasir Azərbaycan dili» кafedrasının müdiri professor H.Mirzəyevə verildi.** O, yubilyarı səmimi sözləri ilə təbriк edərəк dedi: Hörmətli Tofiq mülləim! Siz alimliкdən öncə Azərbaycan xalqının vətənpərvər, qeyrətli, cəsarətli, ədalətli oğlusunuz. Ona görə də Azərbaycan xalqı və Azərbaycan ziyalıları Sizi çox sevir. Siz elm sahəsində, dilçiliк sahəsində, ədəbi dil sahəsində, tarixi qrammatiкa sahəsində xüsusi bir məкtəb yaratmışsınız. O məкtəb həmişə yaşayacaq. Ona görə кi, Siz heç кimi təкrar etməmişsiniz. Sizin dərsliкləriniz, monoqrafiyalarınız sevilə-sevilə oxunur, bundan sonra da oxunacaq. Ona görə кi, Siz кülli miqdarda dil faкtlarına, tarixi faкt-

lara əsaslanıb fikrinizi demisiniz. Six türk dünyasının ən qeyrətli oğullarından birisiniz. Siz Murad Acının «Qıpçaq çölünün yovşanı» əsərini dilimizə tərcümə etməklə xalqımıza, gəncliyimizə yol göstərdiniz və bu sahədə hamını qabaqladınız. Bu, Sizin daxili aləminizdən irəli gəlir, bu, Sizin qeyrətinizdən irəli gəlir, bu, Sizin cəsarətinizdən irəli gəlir.

Mən uzun illər Sizinlə birlikdə toponomiya komissiyasının üzvü olmuşam. Çox ciddi məsələlərdə, çox prinsipial məsələəlrdə Tofiq müəllim cəsarətlə durub xalqını, dövlətini həmişə müdafiə edib, axıra qədər və həmişə də qələbə çalıb. Sonda mən belə demək istəyirəm: 70-i şərəflə vurmusan başa, Arzum odur ki, 100-ü də yaşa!

Yığıncağın sonunda söz yubilyara – **professor Tofiq Hacıyevə verildi.** O, BDU-nun rektoru professor Abel Məhərrəmova, yubileyin təşkilində əməyi olanların hamısına – məruzəçilərə, çıxış edənlərə, zalda oturanlara təşəkkür etdi və bugünkü görüşdən çox məmnun qaldığını, bu görüşün onun üçün böyük ibrət dərsi olduğunu nəzərə çatdırdı. Yubilyar dedi: bu gün burada keçmiş günlərdən danışıldı, mən fikirləşdim, elə tariximiz də budur, bizim həm təhsil sistemimiz, həm elmi sistemimiz, həm ədəbi-bədii yaradıcılıq sistemimiz - bunlar hamının tarixidir. Mən 70 ildə bunları görmüşəm, həm də iştirakçısı olmuşam. Mənim arzularım ümumən ideya arzularıdır, ailə quruculuğundan, övlad azlığından onlar ayrı taledir. Mənim ictimai həyatdakı taleyimi həmişə Allah-taala qayğı ilə himayə eləyib. Təsəvvür edin ki, mən indiki qolumu (imzamı) 46 il bundan öncə, 1960-cı ildən çəkirəm. O zaman ümumi kiril sistemində, kiril əhatəsində mən latın əlifbası ilə qol çəkirdim. Niyə? Mənim 1000 illik əski yazımı əlimdən almış, Türkoloji Qurultayın tövsiyə etdiyi latın əlifbasını əlimdən almış, kirilə öz etirazımı bildirmişdim. Allah-taala mənim ideyalarımı həyata keçirir. Abel müəllim I Türkoloji qurultayın 80 illiyi keçiriləcəyini eşitdikdə, birinci olaraq Azərbaycanda həmin qurultaya sessiya həsr elədi, konfrans keçirdi. Abel müəllim belə bir ideya irəli sürdü ki, mənim yubileyimi I Türkoloji Qurultayın 80 illiyi qeyd olunacaq konfrans günlərində keçirsin. Bu işi də gerçəkləşdirən mənim əski dostum, bizim böyük dilçimiz Ağamusa müəllim oldu. Ağamusa müəllim I Türkoloji Qurultaya həsr olunmuş konfransın keçirilməsi işini proqramlaşdırdı və elə bir gün seçdi ki, Abel müəllimin arzusu yerinə yetsin. Yəni bütün bunlar dilə hörmət idi, Ağamusa müəllimin universitetimizə hörməti idi, insanlığa hörməti idi. Odur ki, bu işə görə Abel müəllimə, Ağamusa müəllimə bugünkü gündə türkiyəli dostlarımla, digər ölkələrdən olan dostlarımla bir yerdə olduğum üçün təşəkkür edirəm.

İndi mənim çox böyük bir arzum var, çox müqəddəs bir arzum var, ümid edirəm ki, Allah onu da gerçəkləşdirəcək. Bugünkü dünya siyasətinin memarlığında, arxitekturasında çox fəal iştirak eyləyən bizim cavan prezidentimiz, cənab İlham Əliyev mən hesab edirəm ki, mənim o arzumu da gerçəkləşdirəcək, yəni bizim Qarabağımız geri dönəcək. Yəni hesab edirəm ki, Allah-təala, əvvəlki arzularımı gerçəkləşdirdiyi ki, bu arzumu da tezliklə həyata keçirəcək. 70 yaş bilirsiniz kimi, qocalıq yaşıdır.

Dillə tarixi yazmaq söhbəti vardı, mən bu işi yazmağa başlamışdım. İndi mənim çox istedadlı tələbələrim var, mən arxayınam, bu işi onlar çox məharətlə axıra çatdıracaqlar.

Mən bütün ömrümü, burada deyildiyi kimi, ona həsr etmişəm ki, bu ərazi əskidən türk vətənidir. Amma nə faydası? Mən deyirdim, çoxlu etirazlara səbəb olurdu. Özü də mənə etiraz edənlər çox titullu, çox avtoritetli, adlı-sanlı adamlar idi. Bir də dövlət dilinin işlənməsi haqqındakı fərmanın giriş hissəsində rəhmətlik prezidentimiz Heydər Əliyev dedi ki, bura eradan əvvəl türklərin vətəni olub. Yəni mənim sözümün arxasında dövlət siyasəti dayandı. Dövlət başçısı məni müdafiə etdi. Daha arzunun bundan yaxşı həyata keçməyi nədir? Bir də belə bir fikir mövcud idi ki, «Dədə Qorqud» ən yaxşı halda X-XII əsrlərin hadisələrinə uyğun gəlir. Ancaq bu XV-XVI əsrlərdən sonra formalaşmışdır. Xüsusilə bizim Türkiyədəki arkadaşlarımız XV əsrdən o yana keçmişlər. Mən 1976-cı ildə çıxan kitabımda dedim ki, ola bilsin ki, hadisələr uyğun gəlir, qəhrəmanlıq dastanını xalq həmişə tarixən zaman-zaman öz vəziyyətinə uyğunlaşdırır, amma bu hadisələr çox qədimə gedir. Əsaslandırmağa çalışırdım ki, bu çox qədimə gedir. «Kitabi-Dədə Qorqud» deyirdilər, mən isə həmişə «Dədə Qorqud kitabı» deyirdim.

Allah rəhmət eləsin, mərhum prezidentimiz Heydər Əliyevə, fərman imzaladı ki, «Dədə Qorqud»un 1300 illiyi keçirilsin. Bütün dünya bu fərmanı qəbul elədi. Bu yubileyin arxasında duran insan həyata keçirdi.

Bizim yazılı ədəbi dilimizin tarixi XIII əsrdən başlayırdı. Həmin fərmanla birdən-birə VII əsrə gedib çıxdı. Yazılı tarixi 600 il qabaqladıq. İndi «Dədə Qorqud kitabı» VII əsr Azərbaycan yazılı abidəsi sayılır. Deməli, mən «Dədə Qorqud kitabı»nın düşüncə arxitekturasındakı dəyişikliyi gördüm. Bu mənim arzum idi və həmin ideya mənim dövlətçiliyim tərəfindən müdafiə olundu. Ömür boyu fikirləşmişəm ki, Türkiyə ilə Azərbaycan arasında siyasi, mədəni əlaqələr yaransın, gediş-gəliş başlansın. Mən onu da gördüm. Nəinki gördüm, ilk təltiflərimi Türkiyədən aldım. Əməkdar Elm Xadimiyəm, AMEA-nın müxbir üzvüyəm, Türkiyənin «Ləyaqət Nişanı» ordenini almışam, türk dilinin şərəf yiyəsi olmuşam. Qəribə şeydir, mən taleyimi o arzuya ki, həsr etmişdim, o arzunun özünü həyata keçən gördüm.

Bu gün mənim yubileyimdə dostlarımız iştirak edir. Bu işin özünün qurulmasında bir memarlıq vardır. Bunu belə quran bizim möhtərəm rektorumuzdur. Abel müəllim görkəmli alim olmaqla yanaşı, təhsil-elm işinin çox istedadlı təşkilatçısıdır. Onun sayəsində universitetimiz günü-gündən gözəlləşir. Bütün universitet kompüterləşir. Kompüterləşmə müasirləşmə deməkdir, müasir dünya elminə inteqrasiya deməkdir. Bu, Abel müəllimin istedadıdır. Abel müəllim universitetimizin qayğısını çəkən bir insandır. Ona görə Abel müəllim universitet tarixində daim qalacaqdır. Abel müəllim, Sizə təşəkkür edirəm, minnətdarlığımı bildiririrəm. Hamınız sağ olun, Allah köməyiniz olsun. Mən əlbəttə, istərdim ki, Abel müəllimin, Əli müəllimin, Mahmud müəllimin dediyi kimi, mənim növbəti ad günlərim doğma elimdə – Cəbrayılımda keçirilsin. Allah amanında.